"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir"
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

31 mart 2014-cü il № 3 (212) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK



**Hörmətli həmvətənlər!**

**Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və bahar əhval-ruhiyyəsi arzulayıram.**

**Milli varlıq və mənəviyyat xəzinəsi olan Bahar bayramı müdrik əcdadlarımızın bugünkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür. Novruz ənənələri dəyərlər sistemimizdə müstəsna yer tutmuş, xalqımızın təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Cəmiyyət üzvləri arasında qarşılıqlı ünsiyyətə çağırması, səmimiyyəti gücləndirməsi və yüksək əxlaqi keyfiyyətlər formalaşdırması onu ən ali insani xüsusiyyətlərin daşıyıcısı kimi ümumbəşəri mədəni sərvətlər sırasına daxil etmişdir.**

**Bahar bayramı keçmişimizin ən çətin dövrlərində belə zehinlərdən silinməyib gələcəyə inamımızı sarsılmağa qoymamışdır. Qəlbimizin dərinliklərində kök salaraq milli özünü dərk məfkurəsini yaşatması sayəsində o, ötən əsrin sonlarına doğru Azərbaycanda müstəqil dövlətçilik ideallarının gerçəkləşməsini təmin edən mühüm amillərdəndir. Mənəvi mədəniyyətimizin zənginliklərini özündə toplamış qədim Novruz mərasimlərini qloballaşmanın vüsət aldığı, sürətlə dəyişən dünyada bütün rəngarəngliyi ilə layiqincə qoruyub saxlaması müasir Azərbaycanın tarixi-mədəni və milli-mənəvi irsə bağlılığının rəmzidir.**

**Yazın gəlişi onun yeniləşdirici ovqatına uyğun, yurdumuzun hər bir guşəsində aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri və insanlarımızın rifahını əsaslı surətdə yaxşılaşdıran çoxsaylı nailiyyətlərlə səciyyələnir. Bizimlə birgə baharı azərbaycançılıq düşüncəsi işığında minlərlə soydaşımız ölkəmizin hüdudlarından uzaqlarda qarşılayırlar. Həmrəyliyimizin rəmzi olaraq bu ümumxalq bayramı qoy hər bir ailəyə bol sevinc və ruzi-bərəkət bəxş eləsin.**

**Hamınızın əziz Novruz bayramınız mübarək olsun!**

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 18 mart 2014-cü il.**

## SİYƏZƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ARİF QASIMOVUN NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ RAYON SAKİNLƏRİNƏ TƏBRİKİ

**Hörmətli siyəzənlilər!**

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bu əziz bayram günlərində hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Novruz ümumxalq bayramı kimi uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Bu bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə yüksək ehtiramını və milli-mənəvi dəyərlərə dərin bağlılığını nümayiş etdirir.

Artıq neçə illərdir ki, üzümüzə gələn hər Novruz ölkəmizin daha sürətli inkişafına şahidlik edir. İllər bir-birini əvəz etdikcə biz Azərbaycanımızın daha da çiçəkləndiyini, qüdrətləndiyini görürük. Bütün bunlar isə Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu düzgün siyasət və onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin gərgin əməyi sayəsində mümkün olmuşdur. Şübhəsiz ki, ölkəmizin hər yerində olduğu kimi siyəzənlilər də bu inkişafa öz töhvəsini vermiş və bunu davam etdirməkdədirlər. İnanırıq ki, cənab Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı, Sizin yaxından köməkliyiniz sayəsində rayonumuz ölkənin ən abad və gözəl guşələrindən birinə çevriləcəkdir. Rayonumuzda gedən quruculuq işləri, böyük layihələrin icrası bundan sonra daha da sürətlə davam etdiriləcəkdir. Təhsil, səhiyyə, idman obyektləri, park və xiyabanlar, yaşıllıqlar salınacaq, sakinlərimizin həyat səviyyəsinin yaxşılaşdırılması üçün səylərimiz artırılacaqdır.

Bir daha Sizi əlamətdar bayram münasibətilə ürəkdən təbrik edir, hər bir evə, ailəyə bol sevinc və xoşbəxtlik arzulayıram.

Novruz bayramınız mübarək olsun!

**Arif QASIMOV,**
**Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı.**
**18 mart 2014-cü il.**

## MART AYININ RƏSMİ XRONİKASI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində aparılacaq əsaslı təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış olmuşdur. Dövlətimizin başçısı təmir və yenidənqurma işlərinin aparılacağı ayrı-ayrı sahələri gəzdi, işlərin yüksək keyfiyyətlə görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədənini qəbul etmişdir. Dövlətimizin başçısı İyad bin Amin Mədənini İslam Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də paytaxt Bakıda inşası davam etdirilən bir sıra yol qovşaqlarında və yol ötürücülərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də 8-mart-Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da ABŞ-ın Nyu-York şəhərində yerləşən Beynəlxalq Sülh İnstitutunun prezidenti Terye Röd-Larsenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi ilə bağlı mövcud vəziyyət, bu istiqamətdə beynəlxalq və regional əməkdaşlığın inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Martın 10-da Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzanmış yeni bulvar hissəsində müasir attraksion-panoramın açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akar ilk dəfə ölkəmizə 1994-cü ildə səfər etdiyini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük ehtiramla xatırladı. Ötən dövr ərzində Bakıda çox böyük dəyişikliklərin şahidi olduğunu vurğulayan Hulusi Akar ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda yüksək təəssürat yaratdığını dedi.

Martın 17-də Şirvanşahlar Sarayı Kompleksində yeni yaradılmış muzey ekspozisiyası təqdim edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni ekspozisiya ilə tanış olmuşlar.

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı-Novruz münasibətilə ümumxalq şənliyi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Novruz şənliyində iştirak etmişlər.





Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı. Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Haaqa şəhərində keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün martın 23-də Niderland Krallığına işgüzar səfərə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 24-də Haaqada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukiya Amano ilə görüşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 24-də Haaqada ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ), Jak For (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Niderland Krallığının Haaqa şəhərində keçirilən III Nüvə Təhlükəsizliyi Sammiti martın 25-də öz işini davam etdirmişdir.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə çıxış etmişdir.

**AzərTAc.**

## GÖRÜŞ KEÇİRİLMİŞDİR



Müqəddəs Novruz bayramı ərəfəsində Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ilə görüşmüşdür. Mədəniyyət Sarayının akt zalında keçirilən görüşdə hörmətli Arif müəllim görüş iştirakçılarını bu əziz bayram münasibətilə təbrik etmiş, tanrıdan şəhidlərimizə rəhmət diləmişdir.

O, bildirmişdir ki, vətən torpağının müdafiəsi uğrunda şəhid olanların xatirəsi həmişə böyük ehtiramla yad edilməkdədir. Şəhid ailələrinə, eləcə də sağlamlıqlarını döyüşdə itirmiş vətən övladlarına qayğı və diqqət dövlətimizin başçısının ən çox önəm verdiyi məsələlərdəndir.

Daha sonra Siyəzən RİH başçısı Arif Qasımov görüş iştirakçılarına bayram arzularını bildirmiş, onları maraqlandıran məsələlərin, problemlərinin həlli ilə bağlı rayon rəhbərliyi səviyyəsində görülən işlərdən danışmışdır.

Görüş xoş ovqatla, sabaha, qələbə ünvanlı səhərlərimizə böyük inamla başa çatmışdır. Görüşdən sonra iştirakçılara bayram münasibətilə rayon rəhbərliyi adından Novruz sovqatı da verilmişdir.

**«ÇIRAQ»**

# NOVRUZ BAYRAMINIZ MÜBARƏK OLSUN!

Novruz gəldi. Nə gözəl! Gəlişi ilə arzuya, duyğuya qol-qanad verən, insanlara xoş ovqat bəxş edən baharı təntənə ilə qarşıladıq. Ölkəmizin hər



yerində olduğu kimi, rayonumuzda da Novruz bayramı olduqca yüksək səviyyədə qeyd edildi.



Şəhərimizin ən gözəgəlimli yerində, düz mərkəzində yerləşən Bayraq



Meydanında bir büsat, bir qələbəlik vardı ki, gəl görəsən. Martın 19-da gü-



norta çağı Novruzun gəlişini birlikdə qeyd etmək, ürəkdolusu şənlənmək üçün şəhər sakinləri dəstə-dəstə buraya axışırdı. Bayramsayağı bəzədilmiş böyük ərazi həm gözəl görünüşü, həm də çal-çağırı ilə hələ uzaqdan diqqəti cəlb edirdi.

Bütün meydan boyunca xalça toxuyan kim, yun əyirən kim, şəkərbura naxışlayan, şirniyyatlar hazırlayan kim. İsti lavaşın, təzə kababın ətri də bir yandan. Qaynayan samovarların ətrafında da bir qələbəlik vardı. İsti kababdan yeyib pürrəngi çaydan içən şənlik iştirakçıları bir-birlərini təbrik edir, bayram sevinclərini bölüşürdülər.

Yamyaşıl səmənilərlə, gül-çiçəklərlə, al-əlvan bayram xonçaları ilə bəzədilmiş meydana tələsənlərin sayı dəqiqələr ötdükcə çoxalırdı. Meydanın baş hissəsində isə idmanın müxtəlif növləri üzrə siyəzənli gənclər öz bacarıqlarını nümayiş etdirirdilər.

Novruzun atributları olan Bahar qızı, Keçəl və Kosa şən musiqinin sədaları altında rəqs edir, şənlik iştirakçıları ilə yumurta döyüşdürür, şən zarafatlar edir, adamları əyləndirirdilər. Gurgur çatlayan Novruz tonqalı da öz işində. Alov saçan dilimlər səmaya baş vururdular

İp üstündə gəzən, həm də velosiped sürən kəndirbazın çıxışları da buraya toplaşanların, xüsusilə uşaqların marağına səbəb oldu. Getdikcə artan alqışlar bunu söyləyirdi.

Günorta üstü şənliyə qatılan rayon rəhbərliyinin gəlişi də sürəkli alqışlarla qarşılandı. Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov tədbir iştirakçıları ilə görüşdü, idmançıların çıxışlarına baxdı, ağsaqqallarla bayramlaşdı.

Şənliyin keçirildiyi əsas hissədə iştirakçılar üçün oturacaqlar qoyulmuş, rayon rəhbərliyi və qonaqlar üçün xüsusi yer hazırlanmışdı. Hörmətli Arif Qasımov ilk öncə Novruz bayramı münasibətilə siyəzənliləri təbrik etdi, onlara bayram arzularını çatdırdı. «Hər birinizə cansağlığı, səadət və gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram»-dedi.

Söz yenidən musiqiyə, Novruz ünvanlı nəğmələrə verildi. Sazı sinəsinə basıb, gündən-günə gözəlləşən Azərbaycanımızı, onun bir parçası olan Siyəzənimizi vəsf edən aşığın, Bahar ovqatlı, Novruz ünvanlı nəğmələr oxuyan müğənnilərin çıxışları da alqışlarla bitirdi.

Keçmişimizin ən dərin qatlarından gələn Novruz bayramı xalqımızın mənəviyyat dünyasının ayrılmaz hissəsi olub, Odlar diyarında həmişə uca tutulmuşdur. Misilsiz dəyərlərimiz sırasında müqəddəs Novruz ənənələri müstəsna mövqeyə malikdir. Ötən dövrlərin təqib və təzyiqlərinə baxmayaraq, həmin ənənələri günümüzədək layiqincə qoruyub saxlaması xalqımızın bəşər mədəniyyəti qarşısında müstəsna xidmətlərindəndir

Novruz bayramının YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edilməsi əslində hər bir azərbaycanlının nailiyyətidir. Bu uğurun əldə edilməsindəisə ümummilli liderimiz Heydər Əliyevin, onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin xidmətləri əvəzsizdir.

Bahar gəlir. Yurdun bütün guşələrini əhatə edən genişmiqyaslı quruculuq-abadlıq işləri bayramın yeniləşdirici ab-havası ilə həmahəngdir. Biz bunu öz rayonumuzun timsalında aydın görürük. Hər yanda bahar əhval-ruhiyyəsi duyulur. Siyəzən şəhər 1 saylı tam orta məktəbin direktoru, şair Nəcməddin Mürvətov isə aparılan misli görünməmiş quruculuq işlərinə görə rayon ictimaiyyəti adından hörmətli Arif müəllimə minnətdarlığını bildirdi.

İstər mərasim başlayanda, istərsə də bitdikdən sonra hörmətli başçı gö-



rüşdüyü hər bir kəsə bu əziz günlərdə bahar əhval-ruhiyyəsi arzuladı, hər bir sakinə salamlarımı yetirirəm,-dedi.

Bəli, bahar gəldi. Ancaq etiraf edək







ki, siyəzənlilər 2014-cü ildə baharın gəlişini əvvəlki illərdən fərqli olaraq xüsusi təntənə ilə qeyd etdilər. Qalır bircə onlar üçün hər cür şərait yaradan, Novruzda əsl bayram sevinci bəxş edən rayon rəhbərliyinə, bu mərasimin təşəbbüskarı Arif Qasımov cənablarına təşəkkür etmək.

Qoy bu bayram hər bir ailəyə bol ruzi-bərəkət və xoş ovqat gətirsin! Novruz bayramınız mübarək olsun!

**Reyhan MURADOVA.**

# YANAŞMANI DƏYİŞMƏLİYİK

Müşahidə etdiyim, zənnimcə, maraqlı hesab oluna biləcək bir mövzu ətrafında sizinlə söhbətləşmək istəyirəm. İl ərzində müxtəlif xarakterdə xeyli sayda əlamətdar günlər qarşılayıb yola salırıq. Bayramlarda, aydın məsələdir ki, istər istəməz əhval-ruhiyəmiz yüksək olur.

Belə günlərdə daxilimizdə müəyyən bəlli hisslər baş qaldırır. Daxilən bayramı əsasən, hədiyyə vermək, ya da almaq barədə gözləntilərlə qarşılayırıq. Hədiyyə verməyə imkanımız yetməyəndə isə bayramı bir təhər «başdan edirik», yəni, təmtəraqsız, tədbirsiz (kütləvi və yaxud məhdud dairədə olsun).

Hədiyyə gözləyən tərəfi isə yalnız bir fikir düşündürür. Mən mütləq hədiyyə almalıyam, almasam... Çox qəribədir, ona elə gəlir ki, almasa, deməli, ona çatacaq hədiyyəni (ona pay da demək olar) kimsə mənimsəyib. İş burasındadır ki, hətta kiminlə, yaxud kimlərlə isə keçirilən görüşlər zamanı da ilk növbədə maddiyyət barədə düşünülür. «Əşi, heç nə, bir-iki tərifli söz dedilər, vəssalam. Bu, mənim nəyimə lazım idi?» Fikirləşirlər ki, əgər hədiyyə verə bilməyəcəyiksə, yaxud almayacayıqsa, bunun nəyi bayram oldu?

Bunlar havadan götürülən sözlər deyil. Rastlaşdığım mənzərələrdir. Belə sitüasiyada necə rəftar etməli, nə söyləməli? Biz, nəhayət, bu vəziyyətin müəyyən bir məlum formatını düşünüb qəbul etməliyik. Bu yazını qələmə almaqda məqsədim elə bu barədə fikir söyləməkdir.

Başlıcası, tez-tez tədbirlər keçirməliyik. Məzmunlu, hazırlıqlı. Hədiyyə almaq, yaxud vermək heç də pis bir iş deyil. Mən bunun əleyhinə də deyiləm. Lakin hər dəfə nəyi isə gözləmək, artıq ələbaxımlılıq deməkdir. Demək istədiyim budur. Və çalışılmalıdır ki, bu pis vərdişdən xilas olaq.

Bu mövzuya daha yaxın olan cəhətlərini nəzərə alaraq, zənnimcə, Gənclər və İdman idarəsi, Mədəniyyət və Turizm şöbəsi, bir də Təhsil Şöbəsi rəhbərliklərinin üzərinə daha çox vəzifə düşür. Söhbət təkcə bayramlarda deyil, ağrılı günlərimizdə, tariximizin bizə qoyub getdiyi kədərli günlərində də, xüsusən Qarabağ mövzusunda müxtəlif səpkili görüşlərin, toplantıların keçirilməsinin həm müntəzəm, həm də intensiv olmasına çalışmalıyıq. Kütləviliyini artırmalıyıq. Bura aidiyyəti insanları dəvət etməklə bərabər, rəhbər şəxslərin iştirakının effekti çox yüksək olardı. Veriləcək hədiyyə və yaxud mükafatlar isə əsasən, qoy fəxri fərmanlar olsun. Məgər fəxri fərman daha artıq mükafat deyilmi? İllər ötəndən sonra bu fəxri fərmanların xatirəsi və doğurduğu iftixar hissi, məncə, daha önəmlidir.

Yəni, görəcəyimiz işlər çoxdur. Mən bir məqamı, hər dəfə olduğu kimi, bir daha təkrar etmək istərdim. Hörmətli prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, biz güclü dövlət, güclü iqtisadiyyat qurmuşuq. Bu gün əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfədən çox üstələyir. Bu, onu deməyə əsas verir ki, vətəndaşların rifah halı yaxşılaşır. Ağır güzəran keçirən vaxtlarımız çoxdan ötüb.

Xeyriyyəçilik-bu, tamam ayrı məsələdir. Belə fəaliyyətlə məşğul olan hər bir kəsi yalnız alqışlamaq olar.

Həvəsləndirmək, stimullaşdırmaq istiqamətində dövlətimizin gördüyü tədbirlər göz qabağındadır. Bu, dövlət səviyyəsində də, rayonumuz səviyyəsində də belədir. Belə olduğu halda niyə görə yalnız özümüzə güvənməməliyik?

**İ. İLYASOV.**

# BƏŞƏRİYYƏTİN ƏN BÖYÜK BƏLASI

Bu gün müasir dünyada bəşəriyyəti düşündürən, cəmiyyəti narahat edən problemlər içərisində ən mürəkkəbi, ən ağrılısı, facivi nəticələrə gətirib çıxaranı, xalqın, millətin təhlükə mənbəyinə çevriləni narkomaniya və narkobiznesdir.

Dünyada milyonlarla, ölkəmizdə isə minlərlə insan əsrin bəlası olan narkomaniyadan əziyyət çəkir. Ən acınacaqlısı da budur ki, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları yüksələn xətlə artmağa doğru gedir.

Bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, hüquq mühafizə orqanları, təhsil və səhiyyə sistemi birgə mübarizə aparmaqla qismən də olsa narkomaniyanın yayılmasının və kütləvi hal almasının qarşısını ala bilər.

Ölkə başçısı cənab İlham Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni prioritet məsələ kimi daima diqqət mərkəzində saxlamış, bu sahədə aparılan işin səmərəliliyinin artırılması məqsədilə silsilə fərman və sərəncamlar imzalamışdır. Bunlardan ən önəmlisi Prezident İlham Əliyev cənablarının 28 iyun 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «2007-2012-ci illərdə Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə» və 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramları"dır.

Yuxarıda adı çəkilən 2013-2018-ci illər üçün Dövlət Proqramının qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi məqsədilə Siyəzən Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiya 2013-cü ildə müəyyən tədbirlər hazırlayıb həyata keçirmişdir.

Komissiya narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizənin səmərəliliyini artırmaq məqsədilə müasir telekommunikasiya və informasiya texnologiyalarının imkanlarından maksimum istifadə etməyə çalışmış, keçirilən görüşlərdə, seminarlarda mövzu ilə bağlı sənədli filmlər nümayiş olunmuş, hər bir iştirakçıya antinarkotik təbliğat şəkilli təqvimlər paylanmışdır. Komissiyanın, «Siyəzən RİH Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası» fasebook səhifəsi yaradılaraq keçirilən tədbirlər barədə orada məlumatlar yerləşdirilmiş, maraqlı müzakirələr aparılmışdır.

Əhalinin məlumatlandırılması, gənclərin maarifləndirilməsi ilə bağlı il ərzində keçirilən mütəmadi tədbirlərdə əmək və müharibə veteranlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, din xadimlərinin iştirakı da diqqət mərkəzində olmuşdur. Onlar bu görüşlərdə iştirak edərək gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsində, sağlam həyat tərzinin təbliğ olunmasında və dövlətimizə layiqli vətəndaş kimi formalaşmalarında öz dəyərli tövsiyələrini vermişlər. Komissiya narkomanlıqla bağlı hüquqpozmalara meylli olan yetkinlik yaşına çatmayanları və gəncləri hər il daimi nəzarətə götürərək rayon Polis Şöbəsi, Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi ilə birlikdə qabaqlayıcı profilaktik tədbirlər həyata keçirmişdir. Valideynləri narkotik istifadəçisi olan şagirdlərlə fərdi qaydada psixoloqların iştirakı ilə məxfilik qorunmaq şərtilə söhbətlər aparılmışdır. Rayon Mədəniyyət Sarayında keçirilmiş «Narkomaniyaya qarşı mübarizə hər birimizin borcudur» və «Narkomaniya bəşəriyyətin ən böyük bəlasıdır» mövzusunda tədbirlər də narkomanlığın yayılmasına qarşı aparılan ən səmərəli addımlardır.

2013-cü il ərzində Rayon Polis Şöbəsi tərəfindən narkotik vasitələrin qanunsuz saxlanılması üzrə 8 fakt, qanunsuz əkilib becərilməsi üzrə isə 2 fakt qeydə alınmışdır. Aşkar olunmuş faktlar üzrə təkcə 2013-cü il üzrə qanunsuz dövriyyədən 35,79 qram tiryək, 47,39 qram həşiş, 67,53 qram marixuana, 0,255 qram heroin, 51 ədəd yaşıl kütlə halında 14 kq 545 qram əkilmiş, yabanı halda bitmiş 137 ədəd, yaşıl kütlə halında 110 kq əkilmiş çətənə kolu çıxarılmışdır.

Bütün bu sadalananlarla bağlı bir neçə gün öncə Mədəniyyət Sarayının konfrans zalında Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komitəsinin İşçi Qrupunun əməkdaşı Şahin İsmayılovun iştirakı ilə keçirilmiş dəyirmi masada ətraflı müzakirə getmişdir.

Tədbiri Rayon İcra Hakimyyəti başçısının müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Siyəzən Rayon Komissiyasının sədri Etibar Heydərov açmışdır.

Komissiyanın məsul katibi Həsənağa Əliyev sözügedən Proqramın müddəalarının icrası ilə əlaqədar və 2013-cü il ərzində rayonda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində görülmüş işlər barədə ətraflı məruzə etmişdir.

Dəyirmi masanın iştirakçılarından Siyəzən Peşə məktəbinin direktoru Pirverdi Tarverdiyev, şəhər 3 saylı tam orta məktəbin direktoru Rafiq Yarıyev, Rayon Poliklinikası baş həkiminin müavini Firdovsi Hacıyev çıxış edərək sözügedən proqramın dövlət orqanları, ictimai birliklər, Qeyri-Hökumət Təşkilatları, kütləvi informasiya vasitələri və hər bir sıravi vətəndaş qarşısında qoyduğu məqsəd və vəzifələrdən bəhs etdilər.

**Həsənağa ƏLİYEV,**
**Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının böyük məsləhətçisi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Siyəzən rayon komissiyasının məsul katibi.**

# YARADILMIŞ GÖZƏLLİKLƏRİ QORUYAQ

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü iqtisadi və siyasi siyasət nəticəsində ölkəmizdə inkşaf hər bir sahədə özünü aşkar göstərir. Azərbaycan regional dövlətə çevrilib. Respublikamızın ərazisi başdan-başa tikinti meydanına bənzəyir. Elə rayon, kənd yoxdur ki, orada abadlıq işləri aparılmamış olsun.

Bu yaxınlarda doğma ucqar Ələz kəndinə getmişdim. Kiçik bir kənd üçün müasir tələblərə cavab verən məktəbin tikildiyini görəndə nə qədər sevindim.

Dağ Quşçu kəndinə asfalt yol çəkilmiş, orada yeni məktəb binası tikilmişdir. Bu görülən işlər xalqımıza xidmətin bariz nümunələridir.

Siyəzən şəhərində görülən işlər isə ölçüyəgəlməzdir. Yeni müasir binalar, ayrı-ayrı məhəllə və küçələrdə salınan parklar, istirahət yerləri hər birimizin ürəyincədir. Dekorativ bitkilər, ot örtüyü insanın gözünü oxşayır. Bu gözəllikləri yaradanlara alqış deyirik.

Bütün bunları yaratmaq asan olmadığı kimi, qorumaq da asan deyil. Biz onları qorumağa hazırıqmı? Uşaqlarımız əkilmiş bitkiləri məhv etməyəcəklərmi? Bu suallar məni bir müəllim, vətəndaş kimi narahat edir. Demək istəyirəm ki, uşaqlarımızı elə tərbiyə edək ki, onlar nəinki bitkiləri məhv etməsinlər, hətta onları qorusunlar. Özümüz də onlara nümunə olaq!

**Yaqub MÜRVƏTOV,**
**müəllim.**

# 31 MART-AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-c il tarixli fərmanyıla 31 mart azərbaycanlıların soyqırımı günü elan olunmuşdur.

1918-ci ilin 31 martında xalqımızın başına gətirilən bu soyqırım faciəsinin əsl mahiyyətini dərk etmək üçün tarixə qısa ekskursiya etməyimiz lazımdır...

II Yekaterina I Pyotrun vəsiyyətinə uyğun olaraq və gələcəkdə Hindistan və Çinə sahib olmaq üçün Bosfor və Dardanell boğazını ələ keçirmək planını həyata keçirmək məqsədilə Azərbaycan üzərinə general Zubovun başçılığı altında rus qoşunlarını göndərdi. Zubov Azərbaycanın bir neçə strateji əhəmiyyətli şəhərlərini ələ keçirdi. Lakin II Yekaterinanın qəfil ölümü bu planın həyata keçməsinə mane oldu.

1796-cı ildə II Yekaterinanın yerinə keçən I Pavel böyük dövlətlərin təzyiqi altında rus qoşunlarını Azərbaycandan çıxarmağa məcbur oldu...

1801-ci ildə I Pavelin öldürülməsindən sonra hakimiyyətə gələn I Aleksandr II Yekaterinanın yarımçıq qalmış planını həyata keçirməyə başladı. Və dərhal general Sisianovun başçılığı altında Qafqaza 80000-lik qoşun göndərdi. Sisianov əvvəlcə Gürcüstanı, sonra isə Azərbaycan xanlıqlarını işğal etməyə başladı....

1806-cı ildə bu qaniçən general Sisianov Bakı xanlığını işğal edərkən, rəvayətə görə Bakı xanı Hüseynqulu xanın bacısı oğlu tərəfindən öldürülmüş və başı kəsilərək İran hökmdarı Fətəli şaha hədiyyə olaraq göndərilmişdir.

Sisianovun ölümü Rusiyanın işğalçılıq siyasətini dayandırmadı...

Qonşu İran dövlətinin Azərbaycanı və özünü müdafiə etmək məqsədilə 1803-cü ildə Rusiyaya müharibə elan etməsi də vəziyyəti dəyişmədi. Nəticədə 1813-cü il Gülüstan müqaviləsilə Azərbaycanın demək olar bütün xanlıqları (İrəvan və Naxçıvan istisna olmaqla) Rusiyaya güclə birləşdirildi.

1826-1828-ci illərdəki torpaqların geri qaytarılması uğrunda İran şahzadəsi Abbas Mirzənin başçılığı altında başladığı müharibə də məğlubiyyətə uğradı. Nəticədə 1828-ci il Türkmənçay müqaviləsilə Azərbaycan tam işğal olunaraq Rusiyaya birləşdirildi.

Bundan sonrakı yüz ildə azadlıq uğrunda Azərbaycan xalqının apardığı mübarizələr-üsyanlar çar Rusiyası tərəfindən amansızlıqla yatırıldı...

1904-cü ildə rus-yapon müharibəsində rusların məğlubiyyəti rus imperiyası tərkibində yaşayan xalqların azadlıq mübarizəsini yenidən alovlandırdı.

1904-cü ilin dekabrında Bakıda siyasi tələblərlə başlanan fəhlə hərəkatını 1905-1906-cı illərdə çar Rusiyası erməni və azərbaycanlıları bir-birinin üzərinə salışdırmaqla inqilabi mübarizədən yayındırmağa nail oldular...

1914-cü ildə başlanan I dünya müharibəsi xalqlar həbsxanası olan Rusiyada azadlıq uğrunda mübarizəni yenidən alovlandırdı.

Rusların müharibədə hər yerdə məğlubiyyəti çar II Nikolayın 1917-ci il martın 2-də istefa verməsilə nəticələndi. Bundan sonra Rusiyanın özündə hakimiyyət uğrunda mübarizə başladı...

Qafqaz xalqları da öz azadlıqları-müstəqillikləri uğrunda mübarizəyə başladılar.

Rusiyadakı hakimiyyətsizlikdən istifadə edən Qafqaz xalqları Tiflisdə Zaqafqaziya seymini yaratdılar.

Azərbaycan xalqının müstəqilliyi artıq qaçılmaz idi. Bu azadlığı əngəlləmək məqsədilə düşmənlər 1918-ci ilin mart ayının 31-də Bakıda dəhşətli qətliam törətdilər. Qəddar düşmənlərimiz olan ermənilərin rəhbərliyi və bilavasitə iştirakı ilə törədilən bu qırğın nəticəsində Bakı şəhərində 12 min günahsız adam insanlığa sığmayan vəhşi üsullarla qətlə yetirildi.

Bundan başqa Bakının ətrafındakı qəzalarda: Şamaxıda, Qubada, Salyanda, Kürdəmirdə və s. yerlərdə silahlı erməni-rus birləşmələri müsəlman əhalini amansızlıqla qanına qəltan etdi.

Ermənilərin insanları yalnız azərbaycanlı-müsəlman olduğuna görə məhv etmələri insanlığa qarşı cinayət idi. Ona görə də bu heç şübhəsiz, əsl soyqırımı idi.

İki ay sonra Azərbaycan xalqının 28 may 1918-ci ildə Tiflis şəhərində müstəqilliyini elan etməsi, milli hökumət quraraq Gəncə şəhərində yerləşməsi, qardaş türk dövlətinin Nuru paşanın rəhbərliyi ilə Azərbaycana qoşun göndərməsi və birləşmiş qafqaz-islam ordusunun 1918-ci il Sentyabrın 15-də Bakını erməni-eser menşevik birləşmələrindən azad etməsi Azərbaycan xalqının şərəf tarixidir.

M. Ə. Rəsulzadə yazırdı: «Sentyabrın 15-i vaqe olmasa, yəqin ki, mayısın 28-nin ibtidası bir sənayei dövriyyəsini görmədən imtəhayə varar, gedərdi. Bakının Azərbaycan üçün sadə bir paytaxt, «can guşəsi» olduğunu nəzərə alırıqsa, həqiqi istiqlal gününün sentyabrın 15-i olduğunu qəbul etməliyik.»

Sovet Hakimiyyəti illərində Azərbaycan xalqı bir gün də olsun müstəqillik arzusundan əl çəkmədi. Uzun mübarizələrdən sonra nəhayət 1991-ci il oktyabrın 18-də yenidən müsətəqillik əldə etmək bizə nəsib oldu.

Amma bu müstəqlliyin əldə edilməsi də xalqımıza asan başa gəlmədi…

Xocalı soyqırımı törədildi, torpaqlarımızın 20%-i bu gün də işğal altındadır.

Şükürlər olsun ki, xalqımız öz müstəqilliyini ulu öndər Heydər Əliyevin rəhbərliyi altında qoruyub saxladı. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu müstəqillik daha da möhkəmləndirilir, gücləndirilir.

**Məcid ƏLİYEV,**
**Siyəzən MKS-nin işçisi.**

**Redaksiyadan:** Martın 31-də Siyəzən Rayon İcra Hakimiyyətində, eləcə də rayonun ayrı-ayrı idarə və müəssisələrində "31 mart – Azərbaycanlıların soyqırımı günü" mövzusunda tədbirlər keçirilmişdir.

# SAĞLAMLIĞIMIZ ÖZ ƏLİMİZDƏDİR

Ət və ət məhsulları gündəlik menyumuzun əsasını təşkil edir. Toy, nişan, ay günü və digər mərasimləri də onlarsız təsəvvür etmək qeyri-mümkündür.

Yazıya başlar-başlamaz bir məsələni xatırlatmaq istəyirəm. Hamınızın yadındadır ki, şəhərimizdə son bir neçə ayadək istər qaramal olsun, istər xırdadırnaqlı elə ət satışı mağazalarında kəsilib satılırdı. Ət satışı mağazalarının əksəriyyəti də düz şəhərin mərkəzində, gediş-gəlişin çox olduğu yerlərdə.

Heyvanlar kəsiləndə yaranmış natəmizlikdən, antisanitariya vəziyyətindən hamı gileylənirdi. yayın isti külәkləri, toz-torpaq da bir yandan. Şübhəsiz ki, bütün bunlar həm vətəndaşların haqlı narazılığına səbəb olur, həm də şəhərimizin görünüşünə, təmizliyinə xələl gətirirdi.

Mövcud vəziyyətdən xəbər tutan rayon rəhbərliyi aidiyyəti təşkilatlara ciddi tapşırıqlar verdi. Məhz rayon rəhəbərliyinin köməyi ilə bu vacib məsələ öz müsbət həllini tapdı, ət satışı mağazalarında heyvan kəsiminə son qoyuldu. Qısa müddətdə şəhərin yaxınlığından keçən Ataçayın sahilində müasir standartlara cavab verən heyvanların kəsimi məntəqəsi inşa edildi.

Ötən ilin noyabr ayında istifadəyə verilən kəsim məntəqəsi (rəhbəri sahibkar Famil Hasilovdur) əhalinin xidmətindədir. Burada heyvanlar baytar tələblərinə uyğun kəsilir, ciddi baytar-sanitar müayinəsindən sonra ət satışı mağazalarına göndərilir.

Hamımız bilirik ki, ət və ət məhsulları yüksək bioloji dəyərli qida kimi insanların qidalanmasında mühüm əhəmiyyətə malikdir. Ətin tərkibində orqanizmin inkişafı, eləcə də normal həyat fəaliyyəti üçün lazım olan zülal, yağ, vitamin və mineral maddələr vardır. Bəs ət alarkən nəyi bilmək vacibdir?

Siyəzən Rayon Baytarlıq İdarəsinin rəisi Seyfulla Qasımovla da söhbətimiz məhz bu barədədir. Ət alarkən ilk növbədə onun xarici görünüşünə və iyinə diqqət yetirmək lazımdır. Köhnə ətin tərkibindəki piyin miqdarı az və tünd rəngli olur. Ətin saxlama müddəti bitdikdə və ya o düzgün saxlanmadıqda pis qoxu yaranır.

Təzə ət özünə xas spesifik iyə malikdir (müvafiq heyvan növü üçün xarakterik), rəngi açıq çəhrayıdan tünd qırmızıya qədər olur. Ət sıx, elastik olmalı, barmaqla basıldıqda əmələ gələn çökək tez düzəlməlidir. Rəis daha sonra bildirdi ki, 25 Ianvar 2014-cü il tarixində Dövlət Baytarlıq İdarəsi ilə birgə keçirilmiş reyd zamanı şəhərin H. Əliyev küçəsində mənşəyi bilinməyən ət aşkar edilmiş və satışdan kənarlaşdırılmışdır. Həmin ətdən götürülmüş nümunələrin Respublika Baytarlıq İdarəsinin laboratoriyasında analiz baytar həkimlərinin yanılmadığını sübut etdi. bununla da bakterioloji çirklənməyə məruz qalan və insanlar üçün xəstiəlik mənbəyi olan 60 kq ət reyd iştirakçıları tərəfindən zərərsizləşdirilmişdir.

Müsahibimiz onu da bildirdi ki, ət satılan mağazaların standartlara uyğun tikilməsi də vacib məsələdir. Bu, satışa buraxılan ətin son məqamda alıcıya yüksək səviyyədə çatdırılmasında heç də az rol oynamır.

Artıq boz ay dediyimiz martı yola salıb, üzü yaza, yaya, günəşli günlərə gedirik. Aydın məsələdir ki, şadlıq evlərində, restoranlarda mərasimlərin getdikcə çoxalması ətə olan tələbatı da artırır. Odur ki, ət alarkən diqqətli olmağı da unutmayın. Təzəliyi şübhə doğuran əti almayın. Solğun, yapışqan, təzə ətə xas iyi olmayan ətdən istifadə etmək məsləhət görülmür. Belə ətin istehlakı xəstəlik törədən mikrobların inkişafı üçün əsas mənbələrdən biridir və zəhərlənməyə səbəb ola bilər.

**R. MURADOVA.**

# NOVRUZ BAYRAM ŞƏNLİKLƏRİNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar, o cümlədən Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.

**NOVRUZ BAYRAMI İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN ŞƏNLİKLƏRDƏ**

-Əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır.

-Tonqallar ətrafında olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, ot tayalarından, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

-Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif küləyinəsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər.

**UŞAQLARI NƏZARƏTSİZ QOYMAYIN**

-Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdırlar.

**ŞAM YANDIRARKƏN**

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s. yerlərə yapışdırmaq olmaz.

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti.**

## TƏBRİK EDİRİK!

Siyəzən Telekommunikasiya Qovşağının rəhbərliyi Azərbaycan xalqını «Novruz bayramı» münasibəti ilə təbrik edir, xalqımıza xoşbəxt sabahlar, sağlam günlər və gözəl ailə sevincli həyat arzulayır.

## ABONENTLƏRİN NƏZƏRİNƏ!

01. 03. 2014-cü il tarixdən Aztelekom. net provayderində Bahar kompaniyasına start verilir!

1+1= 1 ay Sizdən, 1 ay Bizdən

Minimum 4 ay İnternet istifadəçimiz olan hər bir şəxs 1-ci ay xidmət haqqını ödəməklə, 2-ci ay pulsuz İnternet xidmətindən istifadə edə biləcəkdir. 3-cü və 4-cü ay xidmət haqqı istifadəçi tərəfindən ödənilməlidir. Əgər istifadəçi 4 ay öncədən İnternet xidmətindən imtina edərsə, güzəşti ləğv olunacaq.

**Siyəzən Telekommunikasiya Qovşağı.**

## NOVRUZ BAYRAMINIZ MÜBARƏK OLSUN (Aşıqsayağı)

Tutun xonçaları, əkin səməni,
Ay ellər, vətənə gözəl yaz gəlir.
Açın qapıları, pəncərələri,
Buraxın içəri, xoş bahar gəlir.

Əvvəl çərşənbədir, hoppanın sudan,
Ağrımız, acımız suya tökülsün.
Belə buyurmuşdur, böyük yaradan,
Bu da bir bayramdır, qoy hamı bilsin.

Bil odlar yurdudur, bizim yurdumuz,
Siz oddan, alovdan keçib gəldiniz.
Hələ qabaqdadır «od» çərşənbəmiz,
Bahar bayramına xoş gəlmisiniz.

Yel əsdi apardı dərdi, qadanı,
Ocaqda qaynayır Novruz qazanı.
Yığılıb insanlar şənlik eyləyir,
Çağırın qoy gəlsin indi Ozanı.

Torpaq cana gəlir, əyanır deyən,
Torpağı həmişə qoru, saxla sən.
Torpaq, torpaq olar, əkib becərsən,
Əkib becərməsən, qoruma heç sən.

Gözəl həyatınız heç vaxt solmasın,
Nə azar, nə bezar bir də olmasın.
Həkimə ehtiyac daha qalmasın,
Firdovsi söyləyər həyat şən olsun,
Novruz bayramınız mübarək olsun!

## GÖZƏLDİ

Qırmızı libaslı lalələr yenə,
Yayılıb çöllərə, düzə. çəmənə.
Yarpızım, lilparım gəl deyir mənə,
Süsənli, sünbüllü çöllər gözəldi!

Ucalır binalar, salınır yollar,
Dəyişib zəmanə, həm də qanunlar.
Yollarda ilişib daha qalmırlar,
Şütüyür maşınlar yolu gözəldi!

İndi abadlaşır kəndlərimiz də,
İstəsən bal da var, yağ da var bizdə.
Nemət bolluğudur süfrələrimizdə,
Vətənin həm qışı, yazı gözəldi!

Firdovsi vəsf etdi, doğma vətəni,
Çoxlu söz söyləyib yormadı səni.
Belə yaradıbdır yaradan məni,
Həmişə ilhamım, təbim gözəldi!

## BAYRAMINIZ MÜBARƏK OLSUN (8 Mart Qadınlar bayramına ithaf edirəm)

Ey əziz analar, gözəl qadınlar,
Sizin bayramınız mübarək olsun.
Analar yeniləmz bir qaladırlar,
Qədrini bilməyənə deyək ar olsun!

Onlardır həyata yeni can verən,
Ona qiymət verməz bunu bilməyən.
Açar qucağını öz övladına,
Bir doğma anamız, bir də ki, Vətən!

Biri südün verər, böyüdər bizi,
O biri əbədi məskənimizdir.
Gəlin düzgün verək qiymətimizi,
Hər iksi döyünən ürəyimizdir.

Mən borclu qalmaram heç vaxt, heç zaman,
Eşitsin analar, bir də ki, Vətən.
İnan dağılsa da yer, göy, asiman,
Bilin ayrılmaram mən heç birindən.

**Firdovsi HACISOY (ƏLƏMOĞLU)**

# İDMAN GUŞƏSİ

## YARIŞLARDA

### SAMBO

7-9 mart 2014-cü il tarixlərdə Bakı şəhərində kişilər arasında Sambo üzrə Azərbaycan çempionatı keçirilmişdir.

Yarışda həmyerlimiz Şirin Cavadzadə də iştirak etmişdir. 82 kq çəki dərəcəsində mübarizə aparan Ş. Cavadzadə (məşqçi Yavuz Əliyev) II yeri qazanmışdır.

### BOKS

14-17 mart 2014-cü il tarixlərdə Balakən rayonunda Yeniyetmələrin IX Respublika Oyunlarının proqramına daxil olan Boks idman növü üzrə final mərhələsi yarışları keçirilmişdir.

Həmin yarışda Əlif Nəzərov 35,5 kq çəki dərəcəsində və Amil İlyasov isə 44,5 kq çəki dərəcəsində (məşqçi Elman Abdullayev) I yeri qazanmışlar.

### GÜLƏŞÇİLƏRİMİZİN UĞURLARI

24-26 mart 2014-cü il tarixlərdə Göyçay rayonunda Yeniyetmələrin IX Respublika Oyunlarının proqramında daxil olan Sərbəşt güləş idman növü üzrə 2000-2001-ci il təvəllüdlü yeniyetmə idmançılar arasında zona mərhələsi yarışları keçirilmişdir.

Həmin yarışda Allahverdiyev Ağasif, Məcidov İlqar, İlyasov Pərviz, Güləliyev Tehran (məşqçi Ağadədə Allahverdiyev), Maqsudov Həzrət (məşqçi Cavanşir Ağayev), Baxşıyev Azər (məşqçi Akif Mirzəyev) I, Mütəllibov Kamran (məşqçi A. Allahverdiyev), Cəfərov Elmir ( məşqçi C. Ağayev) II, İlyasov İslam (məşqçi A. Allahverdiyev) isə III yeri qazanmışlar.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman İdarəsinin rəisi.**

## FUTBOL YARIŞI KEÇİRİLMİŞDİR.



Martın 12-də rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə tam orta məktəblərin VII sinif şagirdləri arasında keçirilən «Coca-Cola Məktəbi Kuboku»nun rayon mərhələsinə yekun vurulmuşdur.

Yarışda rayon tam orta məktəblərinin 14 komandası iştirak edərək birinci yer uğrunda mübarizə aparmışdır. Yarışlara ümumilikdə 140 məktəbli qatılmışdır. Martın 12-də keçirilən final görüşündə şəhər 2 və 4 saylı tam orta məktəblərin komandaları üz-üzə gəliblər. Daha güclü olan şəhər 2 saylı tam orta məktəbin komandası rəqibinə qalib gələrək «Coca-Cola Məktəbi Kuboku»nun qalibi olmuşdur. Qalib komanda həmçinin «Coca-Cola Məktəbi Kuboku»nun zona mərhələsində iştirak etmək hüququ qazanmışdır. Tədbirin sonunda I və II yerləri tutmuş komandalar AFFA və «Coca-Cola» şirkətinin nümayəndələri tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

**Nuran NURULLAYEV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

## ŞAHMAT ÜZRƏ RAYON BİRİNCİLİYİ

5 Mart tarixi təqvimizdə Bədən tərbiyəsi və İdman günü kimi qeyd olunur. Ümummilli lider Heydər Əliyevin 1995-ci il martın 5-də Bakı İdman Sarayında idmançılar və idman ictimaiyyətinin nümayəndələri ilə görüşü bu sahədə hadisələrin sonrakı gedişinə köklü təsir göstərmişdir. Buna görə də o tarixi görüşdən 10 il sonra, 2005-ci il martın 4-də Prezident cənab İlham Əliyevin imzaladığı sərəncamla 5 mart «Bədən tərbiyəsi və idman günü» elan edilib. Ötən illərdə qazanılan nəticələrə nəzər saldıqda görürük ki, ölkəmiz bütün sahələrdə olduğu kimi, idman sahəsində də dövlət qayğısı nəticəsində xeyli uğurlar qazanıb. Bu münasibətlə Siyəzən Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 3-5 mart tarixlərində Gənclər Mərkəzində 5 Mart «Bədən tərbiyəsi və idman günü»nə həsr olunmuş şahmat üzrə yeniyetmə oğlanlar və qızlar arasında rayon birinciliyi keçirilmişdir. Yarışda 40-dan çox yeniyetmə iştirak edərək qalib adı uğrunda mübarizə aparmışdır. Olimpiya sistemi üzrə təşkil olunan yarış 3 gün davam etmişdir. Şəhər 1 saylı məktəbin şagirdi Heydərov Əliyar I yeri tutaraq, şahmat üzrə rayon birinciliyinin qalibi oldu. Şəhər 3 saylı tam orta məktəbin şagirdi Əsədov Kamran II yeri tutdu. Şəhər 6 saylı tam orta məktəbin şagirdi Baxşıyev Dadaş isə III yeri qazandı. Sonda yer tutmuş yeniyetmə şahmatçılara rayon Gənclər və İdman İdarəsi tərəfindən fəxri fərmanlar təqdim olunmuşdur.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman İdarəsinin rəisi.**

## «XƏMSƏ» MİLLİ İNTELLEKTUAL OYUNU

Gənclərin intellektual səviyyəsinin və dünyagörüşünün artırılması, respublika tədbirlərində iştirak edəcək rayon komandasının tərkibinin müəyyənləşdirilməsi, eləcə də gənclərin asudə vaxtlarının səmərəli və mənalı təşkil edilməsi məqsədilə martın 15-də gənclər arasında Xəmsə Milli İntellektual Oyunu üzrə rayon çempionatı keçirilmişdir.

Yarışın nəticəsinə əsasən «Sitroen» komandası I yeri tutaraq gənclər arasında Xəmsə Milli İntellektual Oyunu üzrə VII Azərbaycan çempionatının zona mərhələsinə vəsiqə qazandı. «Land of Fire» və «Evrika» komandaları II və III yerləri bölüşdürdülər. Yer tutmuş komandalara Gənclər və İdman İdarəsi tərəfindən fəxri fərmanlar təqdim olunmuşdur.



## «ŞAHİN» HƏRBİ-İDMAN OYUNU ÜZRƏ RAYON BİRİNCİLİYİ

Martın 14-də şəhər stadionunda rayon Gənclər və İdman İdarəsi rayon Təhsil Şöbəsi və SHXÇDX-nın Siyəzən rayon bölməsi ilə birgə «Şahin» hərbi-idman oyununun rayon birinciliyi yarışlarını keçirmişdir. Yarışda şəhər 3 saylı tam orta məktəbin komandası I, şəhər 6 saylı tam orta məktəbin komandası II, şəhər 1 saylı tam orta məktəbin komandası isə III yerə layiq görülmüşdür. Sonda yer tutmuş komandalar rayon Gənclər və İdman İdarəsinin fəxri fərmanları ilə təltif olunublar. I yeri qazanmış komanda aprel ayında Qusar rayonunda keçiriləcək «Şahin» hərbi-idman oyununun zona birinciliyində Siyəzən rayonunu təmsil edəcəkdir.

**Nuran NURULLAYEV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**



## TƏBRİK EDİRİK!

Əziz balamız Aman! Səni 2 yaşın tamam olması münasibətilə təbrik edirik.- Həyatda sənə uğurlar arzulayırıq.

Təbrik edirlər: atan, anan, nənələrin, babaların.



## İTMİŞDİR

Nuriyeva Fərqanə Seydi qızına məxsus AZE №09446029 nömrəli şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri,
Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 1112
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83